Hürriyyət

Tarix

SİZİN ÜÇÜN QƏZET

№28 (3128) 13 - 15 Mart / 2021-ci il

www.hurriyyet.org; / hurriyyet@mail.ru



# Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı

## Ermənilərin Rusiyaya ərazi iddiaları: ikinci "Qarabağ" hazırlayırlar?




Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indiki ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

*(Əvvəli ötən saylarımızda)*

Şimali Qafqazda yaşayan ermənilərin bir qrupu təşkilat yaradaraq, onu milli azadlıq cəbhəsi adlandırmışdır. Bu təşkilat öz müraciətlərini Rusiya və Ermənistan prezidentlərinə, ABŞ senatına və BMT-yə, habelə Ermənistanın hüdudlarından kənarda yaşayan ermənilərə və Rostov vilayətinin, Stavropol və Krasnodar diyarlarının rəhbərlərinə göndərmişdir. Göstərilən qrup həmin sənədlərdə Şimali Qafqazla bağlı tələblər irəli sürərək iddia edir ki, Şimali Qafqaz Ermənistanın ayrılmaz tərkib hissəsidir. Lakin hazırda Şimali Qafqazı "Böyük Ermənistan"la "birləşdirmək" mümkün olmadığından, müraciətlərin müəllifləri buna kömək göstərilməsini xahiş edirlər ki, Rostov vilayətinin, Stavropol və Krasnodar diyarlarının ərazisində erməni muxtariyyəti yaradılsın.

Sənədləri "təşəbbüs qrupu" deyilən qrupun adından A. Melik-Tevosyan, protokolları isə həmçinin A. Aqababyan imzalamışlar.

Bəs "birləşmə" uğrunda mübarizənin hansı forma və metodlarından istifadə etmək təklif olunur? Bu sual Şimali Qafqazın erməni milli azadlıq cəbhəsi "təşəbbüs qrupu"nun iclasının 4 nömrəli protokolunun əvvəlində göstərilmişdir. Həmin protokolda təxminən aşağıdakılar deyilir:

"Birinci məsələ barəsində Yerevandan olan məsul əməkdaşın məlumatı dinlənilmişdir. O, Rusiyada hadisələrin inkişafı haqqında və Rusiya rəhbərliyində kadr dəyişiklikləri ilə əlaqədar ermənilərin siyasi faydaları haqqında Moskvadan alınmış məlumatları oxumuşdur. Məruzəçi Zaqafqaziyada vəziyyəti araşdırmış, Qarabağ ermənilərinin milli azadlıq hərəkatındakı nailiyyətlərini qeyd etmiş, Rusiya qoşunlarının komandanlığını düşmənə kömək göstərməkdə təqsirləndirmişdir.

Daha sonra məruzəçi Şimali Qafqaz bölgəsində yaşayan ermənilər arasında işi kəskin şəkildə fəallaşdırmağın labüdlüyünü nəzərə çarpdırmışdır. Fəaliyyətin forma və metodları Dağlıq Qarabağda aparılan işin forma və metodları ilə eyni olmalıdır.

Şimali Qafqaz torpaqlarının Ermənistana məxsus olduğuna dair tarixi faktlara əsaslanan materialların əvvəlcə yerli mətbuatda, sonra da vilayət və respublika qəzetlərində ardıcıl surətdə dərc edilməsinə nail olmaq lazımdır. Ermənilərin yaşadığı (yaxşı olar ki, əhalisinin azı 25 faizi ermənilər olan) hər bir yaşayış məntəqəsində Şimali Qafqaz erməni milli azadlıq cəbhəsinin təcili qaydada özəkləri yaradılmalıdır. "Təşəbbüs qrupu" bu özəklərin ciddi uçotunu (hesab, qeyd-yazıya alınma -X.İ.)



aparmalı, onları ədəbiyyatla, xəritələrlə, çıxışların tezisləri və mətbuat üçün hazır məqalələrlə müntəzəm olaraq təchiz etməlidir.

Bu işdə ermənilərə-velikorus şovinizminin güclənməsi nəticəsində vəzifələrindən azad edilmiş keçmiş nomenklatura işçilərinə xüsusi diqqət yetirmək nəzərdə tutulur. Təcrübəli, savadlı və eyni zamanda, incik düşmüş kadrlardan istifadə olunması asan iş deyildir. Lakin bu zaman onların əlaqələrini və nüfuzunu nəzərə almaq gərəkdir.

Hazırda yüksək vəzifələr tutan erməniləri, kommersiya strukturlarının nümayəndələrini göstərilən tədbirlərin maliyyələşdirilməsinə cəsarətlə cəlb etmək lazımdır. Məruzəçinin dediyinə görə, Yerevan və diaspor xeyli vəsait ayıracaqlar.

Lazım gələrsə, bilavasitə yerində əməli kömək göstərmək üçün bölgəyə mütəxəssis və təlimatçılar göndəriləcəkdir. Çox ehtiyac olarsa, yerli özəkləri silahla və digər müdafiə vasitələri ilə təchiz etmək, habelə son dərəcə çətin yerlərə "fədai"lər göndərmək üçün imkan var.

Məruzəçi axırda qeyd etmişdir ki, görülən tədbirlərin hamısı məxfi xarakter daşımalı, sənədlər etibarlı yerlərdə saxlanmalı və təhlükə yaranarsa, dərhal ləğv olunmalıdır.

"Təşəbbüs qrupu"nun iclasında qərara alınmışdır ki, "Şimali Qafqazın hər bir yaşayış məntəqəsində erməni milli azadlıq cəbhəsinin özəklərinin yaradılması sahəsində təşkilat işi genişləndirsin. Habelə son dərəcə zəruri halda yerli erməni gənclərə gizli müharibə aparmağı öyrətmək üçün Şimali Qafqaza təlimatçılar göndərilməsi haqqında ASALA-nın Yunanıstandakı və İrandakı rəhbərlərinə xahişlə müraciət edilsin".

"Təşəbbüs qrupu"nun digər iclasında qərara alınmışdır ki, "aşağıdakı şəxslər cəbhənin təsis yığıncağının fəxri qonaqları kimi dəvət edilsinlər: G.Şahnazarov, Y.Bonner, K.Brutents, S.Sitaryan, S.Kaputikyan, Z.Balayan, S.Sarkisyan, S.Xanzadyan, S.Ayvazyan, L.Ter-Petrosyan, B. Arakyants, R.Koçaryan, L.Petrosyan, L.Kurginyan, Ş.Aznavur".

Bu "dəvət"in belə möhtərəm cənablara çatıb-çatmadığı bizə məlum deyildir. Amma bir şey tamamilə aydındır - başı müsibətlər çəkən ölkəmizdə ikinci "Qarabağa" yol vermək olmaz.

S.ALEKSEYEV.

("Russkiy vestnik", №2, 1993-cü il.) - ( 1: s. 70-73).

Qeydlər: Bu kitabın çapa hazırlandığı vaxtdan bir müddət qabaq Rusiyanın Budyonovsk şəhərinin erməni icması və bu ölkədə fəaliyyət göstərən erməni kilsəsi ermənilər tərəfindən qurulduğunu iddia etdikləri adıçəkilən şəhərə tarixi "Surbxaç" adının qaytarılması məsələsini qaldırıblar (yeri gəlmişkən, onu da yada salaq ki, "xaç" sözünün ermənilərə heç bir aidiyyəti yoxdur və bu, türk sözüdür. Həm xaç sözünü, həm də xaçın özünü ermənilər başqa xalqlardan almışlar - X.İ.).

Bu yaxınlarda da Ukraynanın Lvov şəhər şurasının deputatı Vardkez Arzumanyan Lragir.am internet saytına müsahibəsində 6 min nəfərlik erməni icmasının adından çıxış edərək, Lvov şəhərinin adının dəyişdirilməsi və "Aryuts" qoyulması haqda məsələ qaldıracağını bildirib. V.Arzumanyan da Lvov şəhərinin əsasının ermənilər tərəfindən qoyulduğunu iddia edərək, Erməni Apostol Kilsəsinin Ukrayna Yeparxiyası və Ermənistanın Ukraynadakı səfirinin bu niyyətin gerçəkləşməsi üçün əllərindən gələn köməyi əsirgəməyəciyinə əmin olduğunu söyləyir.

### Qarabağda ermənilərin ruslara münasibətinə dair

Qarabağ məsələsinin həm rəsmi səviyyədə gündəmə gətirilməsində, həm də Azərbaycan torpaqlarının işğalında ruslardan siyasi-hərbi dəstək alan ermənilərin ruslara əslində münasibəti nədən ibarətdir. Belə bir suala aydınlıq gətirmək üçün ermənilərin bölgədə xidmət aparan rus hərbçilərinə qarşı cinayətkar hərəkətlərə diqqət yetirmək lazımdır. əlbəttə, bu cinayətkar hərəkətlər barəsində də yenə bizlər deyil, məhz ruslar özləri rəsmi bilgi verməkdədirlər. Söhbət Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin 1990-cı ildə komendantı, SSRİ DİN Baş İdarəsinin Qarabağda dislokasiya olunmuş daxili qoşunlarının komandan müavini general-mayor Qenrix Malyuşkinin Trendə açıqlamalarından gedir:

**Trend əməkdaşının sualı:**

- "Erməni silahlıları tərəfindən öldürülən qurbanlar sırasında sizin hissənin rus əsgərləri də var idimi?"

General-mayor Qenrix Malyuşkinin cavabı:

- "Mənim Dağlıq Qarabağda olduğum müddətdə erməni silahlıları tərəfindən 30 nəfər rus hərbi qulluqçusu öldürülmüş, 200 nəfərdən çoxu isə yaralanmışdır".

General-mayor Qenrix Malyuşkin Trendə verdiyi geniş müsahibəsində 1993-1994-cü illərdən etibarən Qarabağla bağlı xatirələrini qələmə aldığını və bu xatirələri Rusiyanın tanınmış nəşrləri olan "Pravda", "Pravda Rossii", "Moskovskaə pravda", "Hit i meç" qəzetlərində və "Na boevom postu" jurnalında çap etdirdiyini bildirir...

Qenrix Malyuşkinin açıqlamasına dair şərhə lüzum görmürük. Necə deyərlər, görünən dağa nə bələdçi?!

### Ermənilərin yəhudilərə qarşı törətdiyi soyqırımı

1918-ci ildə bolşevik formasına girmiş ermənilərin Amazaspın komandanlığı ilə Qubada Azərbaycan türklərindən, ləzgilərdən başqa, 3000 nəfər də dinc yəhudini qətliama məruz qoyduğu Fövqəladə İstintaq Komissiyası sənədləri və hadisələrin şahidlərinin rəsmi ifadələri və sinoqoqdakı qeydlərlə öz təsdiqini tapmışdır.

Fərdi təqaüdçü Yakov İliç Abramovun kommunist repressiyası dönəmində möcüzə ilə gizlədib günümüzədək qoruduğu kağızlar, nə zamansa Kədər və Xatirə lövhəsinə həkk etdirmək istədiyi yəhudu qurbanlarının adlarının siyahısı da bu icmanın lideri deputat Yevda Abramovun səyi ilə sübutedici yeni sənədlər sırasına daxil edilmişdir. AMEA İnsan Hüquqları İnstitutunun yəhudi icması nümayəndələri ilə yaratdığı birgə ekspert komissiyası əldə olan bütün rəsmi materialları tədqiq edərək müəyyənləşdirmişdir ki, Amazaspın başçılığı ilə Quba bölgəsində baş verən kütləvi qətllər Şimi dərəsi deyilən ərazidə daha qabarıq yadda qalmışdır: dəstə-dəstə buraya gətirilən yəhudilər "Böyük Ermənistan" sevdalı ermənilər tərəfindən ələ salınır, qızları və uşaqları zorlayır, yaşlıların və yeniyetmələrin burun və qulaqlarını kəsir, sonra öldürüb Şimi dərəsində buraxıb gedirdilər.

1918-ci ildə Quba şəhərində və Quba-Xaşmaz yolunda erməni silahlıları tərəfindən kütləvi şəkildə qırğına məruz qalan yəhudulərin tam olmayan siyahısı da deputat Yevda Abramov tərəfindən müvafiq möhürlə təsdiqlənərək aidiyyatı instansiyalara təqdim edilmişdir.

Dağ Yəhudiləri İcmasının sədri İxiilov Semyon Borisoviç, Azərbaycan Milli Məclisinin deputatı Abramov Yevdo Sosunoviç, Avropa Yəhudiləri İcmasının nümayəndəsi Vekker Moisey Vladimiroviç və Azərbaycan yəhudi icmasının digər liderləri 1918-ci ildə Qubada ermənilər tərəfindən soyqırıma məruz qalmış yəhudilərin xatirəsini əbədiləşdirmək xahişi ilə ölkə rəhbərliyinə müraciət də ünvanlamışlar (2: s.27-28).

Yəhudi icması adından yuxarıda xatırlanan müraciəti imzalayanların tərkibini və ermənilər tərəfindən soyqırıma uğradılmış Quba yəhudilərinin bir qisminin siyahısını diqqətinizə təqdim edək:

Azərbaycan yəhudi icması adından müraciətdə bulunanlar:

İxiilov Semyon Borisoviç, Dağ Yəhudiləri İcmasının sədri; Abramov Yevdo Sosunoviç, Azərbaycan Milli Məclisinin deputatı;Vekker Moisey Vladimiroviç, Avropa Yəhudiləri İcmasının nümayəndəsi; Şalmeyev Semyon Qriqoryeviç, Dağ Yəhudiləri İcmasının idarə heyəti üzvü; Xaimov İlil Nataniiloviç, Dağ Yəhudiləri icmasının üzvü; Sosunov İmmanuel Doniç, Dağ Yəhudiləri İcmasının idarə heyəti üzvü; Davıdov Şaul Mihayloviç, Dağ Yəhudiləri İcmasının idarə heyətinin üzvü; Rabinoviç Boris Zovolunoviç, Dağ Yəhudiləri İcmasının idarə heyəti üzvü; Sayev Yaqub Şamil oğlu, Dağ Yəhudiləri İcmasının idarə heyəti üzvü; Simonov Morduxay Davıdoviç, Dağ Yəhudiləri İcmasının idarə heyəti üzvü; Yusufova Solmaz Rza qızı, Yəhudi Humanitar Qadın Təşkilatının prezidenti; İlyaquyev Qavriil Şamayeviç, Dağ Yəhudiləri İcmasının üzvü.

1918 -1919-cu illərdə erməni silahlı birləşmələrinin qanlı cinayətləri dönəmində Güney Qafqazda öldürülərək soyqırıma uğradılmış yəhudilərinin bir qisminin siyahısı:

1. Avşolum bin Şamail, 2. Avşolum bin Ovroom, 3. Ovroom bin Rahamim, 4. İlievu bin Sosun, 5. İlievu bin Beniyamin, 6. İlih bin Simantov, 7. İlişa bin Muxoil, 8. İliazar bin Yov, 9. Yusuf bin Morduxai, 10. Ovroom bin Haim, 11. İliazar bin Adino, 12. Oşir bin Maşiax, 13. İlhonon bin Şoul, 14. Banil bin İliazar, 15. Bentsion bin Yevdo, 16. Bilo bin Rafail, 17. Bano bin Zaxarie, 18. Qavriil bin Haim, 19. Qodbin Zaxarie, 20. Qluvjin Ataşto, 21. Dovid bin Morduxai (baba), 22. Dovid bin Morduxai (nəvə), 23. Dovid bin Şumşun, 24. Zaxarie bin Nison, 25. Zaxarie bin İlhod, 26. Zakoy bin Rafoil, 27. Xaim bin Dovid, 28. Xaim bin İlhiil, 29. Hano bat Tsizaz, 30. Yakov bin Qomiil, 31. Yevdo bin Morduxai, 32. Yov bin İşio, 33. Yusuf bin Dovid, 34. Yusuf bin Moşe, 35. İfiil bin Şolum, 36. İxiil bin Nahamie, 37. İxiil bin Şoul, 38. İsroil bin İuşva, 39. İuşva bin Avşolum, 40. Muxoil bin Şolum (baba), 41. Muxoil bin Şolum (nəvə), 42. İliazar bin Yov, 43. Manahim bin Şamail, 44. Manaşo bin Rahomo, 45. Morduxai bin Yov, 46. Muxoil bin Yov, 47. Moşe bin Yusuf, 48. Moşe bin Yubis, 49. Morduxai bin Lio, 50. Marus bat Haim, 51. Natai bin Haim, 52. Nisim bin İfraim (baba), 53. Nisim bin İfraim (nəvə), 54. İzro bin Zaxarie, 55. Şamuil bin Yakov, 56. Pinad bin Yusuf, 57. Pinhos bin Ruvin, 58. Pisah bin Nahos, 59. Pisah bin Zaxarie, 60. Tsvi bin Soson, 61. Tsvi bin Yakov, 62. Tzadik bin İfraim, 63. Tsolum bin Morduxai, 64. Tsolum bin Hanuko, 65. Yavo bin İfraim, 66. Rafail bin Yevdo, 67. Rabo bin Yevdo, 68. Rahamim bin Yusuf, 69. Rahamim bin Rafoil, 70. Rafoil bin Ovroom (baba), 71. Rafoil bin Ovroom (nəvə), 72. Rafoil bin Siqdio, 73. Raxil bat Nisim, 74. Raxil bat Şabatay, 75. Raxil bat Rab. Şolum, 76. Şolum bin Melex, 77. Şolmul bin Xazak, 78. Şomoil bin Natami, 79. Şinamit bin Nisim, 80. Şuşan bat Nisim, 81. Hamim bat Tovi, 82. Avraam Avşalum, 83. Nuri Raxamim, 84. Rafael İsrail Naftali, 85. Qurşum Nihim, 86. Zaxaria Nisim, 87. Şalum Yuhay, 88. Hananyaev İfiil Şalmiyeviç, 89. Hananyaev Muşoul Şalmiyeviç, 90. Mihirov Mişi İfraimoviç, 91. Sahliim Hanukoy Hastil, 92. Biror Hanukoy Sasun, 93. Yaxku Zaxarie, 94. Yusif Haim Milih, 95. Haim İlhanan Nahum, 96. Binsion Dedem (Şamay), 97. İliaquyev Uriyo İliaquyeviç, 98. Yunaev Ovrohom Yaxkueviç, 99. Aqarunov Mişi, 100. Bebe İlişo, 101. Abramov Şomoil Yevdo Gilonor, 102. Saadyaev İliaqu Sasunoviç, 103. Aqaşiyev Adinia, 104. Aharu bin Muxoil.

Ermənilərin yəhudilərə qarşı törətdiyi soyqırımı aktlarının növbəti səhifələri Türkiyə, İran, Orta Asiya və Doğu Avropa bölgələrinə aiddir:

*(Ardı var)*